BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2010

# MÜASİR POEZİYADA DAĞ MOTİVİ: MİFOLOJİ KÖKLƏRİ VƏ SEMANTİK XÜSUSİYYƏTLƏRİ
## (Qasım Qasımzadənin yaradıcılığı əsasında)

**R.T.CAVADOVA**
***Bakı Dövlət Universiteti***
***cavadovarena@yahoo.com***

*Məqalədə müasir Azərbaycan poeziyasında dağ motivi araşdırılır. Eyni zamanda bu motivin mifoloji kökləri və semantik xüsusiyyətləri təhlil edilir. Təhlil nəticəsində müəyyənləşdirilir ki, dağ anlayışı, ilk növbədə fiziki məna daşıyır, ondan sonra insan xarakterinin əlamətlərini bildirir, nəhayət, mənəvi və sakral semantik xüsusiyyət nümayiş etdirir. Bunlardan birinicisi ədəbiyyatda insan xarakterinin və təbiət gözəlliklərinin təsviri zamanı istifadə olunan peyzaj motividir. Bu motivin köklərinin mifoloji təsəvvürlərə və təbiət kultlarına bağlılığı müşahidə olunur.*

Ədəbiyyatda intensiv olaraq işlənən və müxtəlif semantik xüsusiyyətlərə malik olan motivlərdən biri də dağ motividir. Müasir elmi yanaşmada dağ təbii bir varlıqdır, coğrafi anlayışdır. Qədim təsəvvürlərə görə, dağ müqəddəs sayılır və ilkin inanc sistemində yer tutur. Xalq yaradıcılığında dağ obrazı özündə ibtidai dövrün təsəvvürlər sistemindəki kult semantikasını bu və ya başqa şəkildə təzahür etdirir. Ona görə də, xalq yaradıcılığında dağ geniş bir şəkildə motivlənir və zəngin paradiqma cərgəsi yaradır. Burada dağın animist və antropomorfist təsəvvürlərlə əlaqəsi özünü aydın şəkildə göstərir. Buradakı ibtidai təbiət kultu tanrıçılığa qədər inkişaf edir və özündə müqədəslik mənasını mühafizə edə bilir.

Müasir ədəbiyyatda dağa müraciəti şərtləndirən əsas səbəblərdən biri də dağın təsəvvürdəki müqəddəslik mövqeyidir. Əlbəttə, bu keyfiyyət öz sakral mövqeyindən profanlaşmaya, adiləşməyə doğru hərəkət edir. Çünki dağ xalq inancında yer tutur. Müasir tarixi və dini dünyagörüş isə bu təsəvvürləri sıxışdırır. Amma folklor, ədəbiyyat və sənət dağın sakral mövqeyini qoruyur, onu bədii düşüncənin imkanları ilə yenidən mənalandırır.

XX əsr Azərbaycan poeziyasında dağ bir obraz olaraq geniş şəkildə işlənmişdir. Burada dağ daha çox böyüklük, ucalıq, əzəmətlilik, vüqarlılıq, etibarlılıq və s. kimi mənəvi keyfiyyətləri ifadə edir. Digər tərəfdən də dağ bir təbiət hadisəsi olaraq peyzaj motivlərində istifadə olunmuşdur. Yəni müasir poeziyada dağ iki şəkildə müşahidə olunur:
1) Obrazlı motivlənmiş şəkildə;
2) Obrazlı motivlənməmiş şəkildə.

Birincidə dağ sadəcə təbiət təsviridir, təbiət lövhələrinin bir elementidir. İkincidə isə dağ sakral və ya mənəvi məna qazanmış bir motivdir. Folklorda dağ

motivi daha çox sakral semantikası ilə seçilir, amma müasir ədəbiyytada bu keyfiyyətlər mənəvi sferaya aid əlamətlər, insana aid xarakterik xüsusiyyətlər kimi səciyyələnir.

XX əsr Azərbaycan ədəbiyatının görkəmli nümayəndələrindən biri olan Qasım Qasımzadənin yaradıcılığında da dağ obrazı geniş şəkildə işlənmiş, rəngarəng bədii boyalarla təqdim olunmuşdur. Şairin şeirlərində dağ həm təbiət lövhələrində, həm mənəvi keyfiyyətlərin ifadəsi zamanı metafora kimi, həm də ayrıca mövzu kimi işlənmişdir. Şair bütün yaradıcılığı boyu "dağlara" sadiq qalmış, ona təkrar-təkrar müraciət etmişdir. Yaradıcılığının ilk dövründə yazdığı şeirlərindən biri "Qəzəbli dağlar" adlanır. Bu şeir İranda kürdlərin inqilabi hərəkatından bəhs edir. Burada adı keçən dağ "Bəsri" dağıdır. Kitabdakı qeydə görə bu dağ Məhabad yaxınlığındadır (1,52). Şeirdə bu belə verilmişdir:

Rəis unutmuşdu, bütün Məhabad
Daim vüqarlıdır Bəsri dağıtək (1,52).

Yenə həmin şeirdə bir qocanın dilindən vəsiyyət kimi səsləndirilən parçada deyilir:

Mənə dağ başında bir kümbəz qursun-
Kürdün məzarı da ucada dursun! (1,53).

Aşağıdakı nümunədə isə "qayalar başı" yüksəklik və ucalıq mənalarında çıxış edir:

Kürdəm, nərə çəkən səsim var mənim,
Qayalar başında qəsrim var mənim.
Osmanlı paşası, İran şahının
Qəlbinə dağ çəkən nəslim var mənim (1,53).

Bu şeirdə İran kürdlərini inqilaba səsləmək, azadlıq mübarizəsinə çağırmaq, intiqam hisslərini coşdurmaq əsas ideya kimi özünü göstərir. Şeirin adının "Qəzəbli dağlar" olması azadlıq mübarizəsi ideyasının böyüklüyünü və inadkarlığını ifadə etmək üçün düşünülmüşdür. Burada dağ insaniləşdirilmişdir. Yəni insana aid olan qəzəbin psixoloji keyfiyyəti dağa aid edilmişdir. Bu həm metaforadır, həm də dağın obrazlı motivlənməsidir. Yəni dağ metafora olmaqla yanaşı, eyni zamanda şeirin əsas ideyasını ifadə edən semantik vahiddir.

Şairin "Bizim dağlar" kitabında da dağ motivləndirilir və ona bədii ideya qazandırılır. Bu baxımdan "Laçın qayası" şeiri diqqəti çəkir:

Qabarıq sinəli Laçın qayası
Nə qorxunc, uçurum görünüşün var,
Əlçatmaz qoynunda kəklik yuvası,
Üstündə qıy vuran şahinlər uçar (2,13).

Burada dağın qayası təbiət lövhəsi olaraq təsvir edilir. Bu ərazinin geniş təsviri isə aşağıdakı bənddə verilir:

Arxan Ala qaya, Məndilin dağı,
Yanında Ağbaba dayanıb qoşa.
Buluddan çalmalı Murov yaylağı
Qarşında Kəpəzlə verib baş-başa (2,13).

Təbitət təsviri davam etdirilir və tədricən təbiətdən insana keçilir:

Palıd ağacından qopan səs, hənir...
Laçınlı, buludlu, qalalı dağlar...

Bu möhtəşəm lövhə bilsən nə deyir:
"Burda babaların ocaq yeri var"
İgid nəslimizin əzəmətidir
Məğrur görünüşü bu gözəl dağın.
Yenilməz vüqarı şan şöhrətidir
Dünənki, bugünkü qəhrəmanlığın (2,15).

Şair "Bizim dağlar" poemasında da "Kürdüstan dağları"ndan bəhs edir:

Dostum daim yaşamışdır, boy atmışdır şəhərlərdə
Olmamışdır başqa yerdə.
Kinolarda görmüş yalnız Kürdüstanın dağlarını,
Qarabağın bağlarını.
O, görməmiş qartal yuva salan uçrum qayaları,
Yayda dağa yağan qarı (2,39).

Şair dağları müqayisə edir:

Düzənləri düzümüz tək.
Dağı bizim dağlar kimi (2,40).

Dağlar kövrək duyğularla xatırlanır:

Mən orada düşünəndə yurdumdakı dağ-daşları,
Nə gizlədim, çox axmışdır ürəyimdə göz yaşları (2,41).

Buradakı kövrəklik və emosional ovqat ilk öncə yurd duyğusu və vətən həsrəti ilə bağlıdır. Dağlar burada doğma vətəni simvolizə edir. Bu mənada ona "bizim dağlar" deyə müraciət olunur.

Dağı xalq dili ilə tərənnüm etmək üçün şair Aşıq Ələsgərə müraciət edir:

Ağ xələt bürünər, zərnişan geyməz
Heç kəsi dindirib keyfinə dəyməz,
Sərdara, ağaya, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar (2,41).

Poemanın digər bir parçasında şair insan və dağ münasibətlərini canlandırır və onların arasında emosional əlaqə yaradır:

"Mina" deyib ney çalmaqdan dağlar, daşlar da yanır (2,44).

Poemada Mina qadın qəhrəmanın adıdır. Amma o da istisna deyil ki, "Bizim dağlar" poemasının qadın qəhrəmanına müqəddəs Mina dağının adı verilmişdir. Bu çox dərin qatlarda "Yer-Ana" kultunun müasir təsəvvürlərdəki qalıqları ilə bağlıdır. Yəni əski inanclar insanların düşüncəsindən tamamilə silinmir və müəyyən bir şəkildə öz təzahürünü tapmış olur. Burada şair yaratdığı obraza müqədəslik qazandırmaq məqsədi izləmişdir. Bu da öz növbəsində əsərin əsas ideyasının müqəddəs məqsədə xidmət etməsini möhkəmləndirmək üçün istifadə olunan vasitələrdən biri kimi səciyyələndirilə bilər.

Şair hər yerdə dağları duyur, hiss edir və onu həyatının bir parçası bilir:

De, şəhərdə-hər məclisdə, hər evdə
Duymuruqmu biz dağların ətrini (2,74).

Şair poemanı yüksək vətəndaşlıq notları ilə tamamlayır:

Sənin eşqin-bu vətəndaş ilqarı
Dağlar kimi ucaldacaq onları! (2,74).

Şairin dağa münasibətini "Azərbaycan" şeirində daha aydın görə bilirik:

Vətən quru dağ-daş deyil...

Onu hər zaman
Seyr etdikcə biz görürük
Canlı insanı (3,32).

Yuxarıda qeyd etdiyimiz kimi, şairin şeirlərində dağlar geniş təbiət mənzərəsi yaratmaqla bərabər insana aid mənəvi dəyərlərin ifadəsi kimi çıxış edir.

Şeirlərdə konkret dağ adlarından Kəpəz, Murov, Ağbaba, Məndil və s. işlənmişdir.

Məlumdur ki, coğrafi anlayışların semantik sahəsi çox genişdir. Belə ki, bu anlayışlarda sakral-mifoloji semantika aydın şəkildə görünür. "Kitabi-Dədə Qorqud"-da Qazlıq dağı, Gökçə dağ, Ala dağ, Qara dağ, Qaracuk dağı kimi dağlara yönəlmiş inamları müşahidə edə bilirik.

"Kitabi-Dədə Qorqud"da Oğuzların dağları köklü duyğulara qabil varlıqlar zənn etməsi də dağın ruh daşımasına olan inamla bağlıdır. Oğuzların dağları, daşları, qayaları deyiləni başa düşən, səs-səda verən, xoş niyyətlə keçid verən, xəbər çatdıran, sığınaq verən, uğur arzulayan, bəd dualardan qoruyan (4,35) bilmələri də dağ ruhuna yönəlmiş etiqaddan qaynaqlanır. Dastanın ilk boyundan bəlli olur ki, oğuzların əsas umma, tapınaq, istəkdiləmə, etiraz və qarğış yeri kimi Qazlıq Dağı sakral sferaya daxildir. Qazlıq Dağı həm də oğuzların xilaskarı kimi müqəddəsdir. Buğacın yaralandığı zaman Boz atlı Xızırın peyda olmasını göstərə bilirik. Dağın ruhu Boz atlı Xızıra transformasiya edilir və onun vasitəsilə ölümdən xilas olmanın əlacı tapılır.

Y.Meletinskinin təbirincə desək, gerçəkdə baş vermiş hər hansı tarixi hadisə necəliyindən asılı olmayaraq mifoloji strukturların hazır qəliblərinə sığdırılır (12,177).

Qeyd edək ki, dağın baş Tanrı ilə əlaqəsi ciddi inam kimi əski türk təfəkküründə yer almışdır. L.P.Potapov türk inanc sistemindəki dağı göydən, baş Tanrı tərəfindən göndərilmə inamı ilə əlaqələndirir (14,149).

"Oğuz Kağan" dastanında dağın ilkin başlanğıc kimi bilinməsi Gün, Ay, Ulduz, Göy, Dəniz kimi kosmoqonik yaradılış elementləri ilə birlikdə çıxış etməsində özünü göstərir.

S.Neklyudovun yazdığı kimi, mifoloji prototip folklor janrlarının dərin semantikasına hopur. Qədim obraz başqa estetik dəyərlər axarına düşsə də, qalıq şəklində ilkin surətini qoruyub saxlayır (13,182-183). Bunun izləri həm xalq yaradıcılığında, həm də ədəbiyyatda bu və ya başqa şəkildə müşahidə olunur.

"Dədə Qorqud"dakı Qazlıq Dağının "uca dağ" kimi dəyər qazanması və Ala Dağın "ər quru dağ" kimi təqdim edilməsi eposun mifik elementlərinin hamilik funksiyası ilə əlaqəli olduğunu göstərir. Bu sferaya "qarımış", "qarşı yatan Qara Dağı" da aid edə bilirik. Həm də Qara Dağın adı təkcə "Dədə Qorqud" eposunda işlənmir.

Altaylıların "Maaday Qara" eposunda da bu adda dağdan bəhs edilməsi və sakral sayılması diqqəti çəkir. Altay eposunda Maaday Qara sağ ovcunda doqquzbucaqlı qara daş, sol ovcunda yeddibucaqlı ağ daş (10,84) olan yeni doğulmuş tək oğlunu düşmən əlinə keçməsin deyə gətirib məhz Qara Dağın başında dörd qayın ağacının altında qoyur və deyir: "Qara Dağ sənin atan, dörd qayın ağacı anan olsun (10,87).

"Dədə Qorqud" eposundakı Qara Dağın otsuz-ağacsız olması Altayın meşə örtüklü dağlarına deyil, bilavasitə "Maaday Qara"dakı Qara Dağın çılpaqlığına adekvatdır. Müqəddəs sayılan Qara Dağ türk olmayan xalqlarda da öz təzahürünü tapmışdır. Slavyan xalqları Qara Dağın, əsasən Qara Tanrı Dağının şərəfinə qurbanlar vermişlər (8,230-231).

Koroğlu Qoşabulağın suyundan uca dağ zirvəsində içir. Koroğlu içdiyi suyu dağdan alır, bu suyu, su ilə bərabər qabiliyyətləri ona dağ verir. Əlbəttə, burada su və dağ stixiyaları birgədir və bunun belə olması əski türk əfsanələrindəki Yer-Sub obrazı ilə əlaqəlidir.

Qeyd edək ki, dağın Yer-Sub kultuna bağlılığı digər tədqiqatçıların da fərqli qənaətlərini ortaya qoymuşdur. S.E.Malov "Yer-Sub"u "müqəddəs vətən" adlandırmış (11,68), yuxarıda qeyd etdiyimiz kimi, A.V.Anoxin isə dağ ruhunun bu kultla əlaqəsini sübuta yetirən faktları göstərmişdir (7,15).

Beləliklə, dağ motivi üzərində müşahidədən aydın olur ki, bu motiv təkcə forma baxımından, ritmik ifadə olunma imkanlarına görə deyil, eyni zamanda məzmununda daşıdığı mifoloji köklərinə görə də zəngin semantik xüsusiyyətlərə malikdir. Bunların içərisində kult semantikası vardır ki, xalq düşüncəsində, inanc sistemində də yer tutmuş, adi, hərfi, nominal mənalarından başqa sakral məna da qazanmışdır. Müasir poeziyada belə anlayışların daşıdıqları mənanın təhlili mifoloji aspektdən başqa filoloji baxımdan da əhəmiyyətlidir. Bu mənalar həm dil və poetik düşüncəmizin tərkib hissəsi, həm də milli-mənəvi dəyərlərimizin kodlaşmış məlumat ehtiyatıdır.

## ƏDƏBİYYAT


1. Qasımzadə Q. Bizim kənd. Bakı: Uşaqgəncnəşr, 1951, 56 s.
2. Qasımzadə Q. Bizim dağlar. Bakı: Uşaqgəncnəşr, 1956, 75 s.
3. Qasımzadə Q. Bənövşə yarpağı. Bakı: Azərnəşr, 1964, 286 s.
4. Hacıyev T. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı: Elm, 1999, 216 s.
5. Kitabi - Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 267 s.
6. Təhmasib M. H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 400 s.
7. Анохин А. В. Материалы по шаманству у алтайцев, собр. во вр. путеш. по Алтаю / СМАЭ АН СССР, т. 4, вып. 2, Л.: 1924
8. Афанасьев А. Н. Древо жизни. М.: Современник, 1983, 464 с.
9. Афанасьева В. К. Гильгамес и Энкиду. Эпические образы в искусстве. М.: Наука, 1979, 194 с.
10. Маадай-Кара. М.: Наука, 1973, 792 с.
11. Малов С.Е. Памятники древнетюркской письменности. М.-Л.: Наука, 1951, 218 с.
12. Мелетинский Е.М. Поэтика мифа. М.: Наука, 1976, 406 с.
13. Неклюдов С.Ю. Статические и динамические начала в пространственно-временной организации повествовательного фольклора / Типологические исследования по фольклору: Сб. статей памяти В.Я.Проппа. М.: Наука, 1975, с.182-190.
14. Потапов Л. П. Культ гор на Алтае // Советская этнография, 1946, №2, с. 145-160.
15. Ревуненкова Е.В. Миф-обряд-религия. Некоторые аспекты проблемы на материале народов Индонезии. М.: Наука, 1992, 216 с.


## МОТИВ ГОРЫ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ: МИФОЛОГИЧЕСКИЕ КОРНИ И СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ

**(На основе творчества Касума Касумзаде)**


**Р.Т.ДЖАВАДОВА**


**РЕЗЮМЕ**


В статье исследуется мотив горы в современной азербайджанской поэзии. Так же анализируется мифологические корни и семантические особенности этого мотива. В

результате анализа определяется, что понятие горы имеет физическое значение в, первой очереди, а второе, черты человеческого характера, а потом духовное и сакральное значения. Первое из них есть мотив пейзажа, который часто используется в литературе при описании красоты природы и человеческого характера. А корни этого мотива имеет мифологическое начало культовых верований.

## THE MOUNTAIN MOTIVE IN THE MODERN AZERBAIJAN POETRY: MYTHOLOGICAL ROOTS AND SEMANTIC FEATURES
### (On the basis of Gasim Gasimzade's creativity)

**R.T.JAVADOVA**

**SUMMARY**

The article researches the mountain motive in the modern Azerbaijan poetry. The mythological roots and semantic features of this motive are analyzed as well. As a result of the analysis it is defined that the concept of mountain initially has a physical value secondly, the lines of human character, and finally, spiritual and sacral values. The first is the motive of a landscape which is often occurred in the literature for the description of the beauty of the nature and human character. The roots of this motive have the mythological beginning of cult beliefs.